DOI:10.30546/gdu.2023.125-129

**UOT:94.**

# ABŞ-IN LATIN AMERİKASI REGİONUNDA HÖKMRANLIĞININ GÜCLƏNMƏSİ

***dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Məqalədə ABŞ-ın Latın Amerikası regionunda hökmranlığının güclənməsi məsələsi araşdırılmışdır. Qeyd edilmişdir ki, artıq 60-cı illərin II yarısının Aəvvəllərində ABŞ-ın hakim dairələrində regionda özünün güclü nüfuzunun qorunması ideyası formalaşdı. Məhz, bu ideyanın təsiri altında L. Conson Latın Amerikasının müxtəlif ölkələrində iqtisadi və siyasi fəaliyyəti gücləndirdi. Ancaq, göstərilməlidir ki, bu fəaliyyət region ölkələrinin daha yüksək inkişafına şərait yaratdı. Qısa müddətdə ABŞ-ın ADT-ı vasitəsilə bütün region ölkələri ilə əlaqələri genişləndi. Bu əlaqələrin inkişaf etdirilməsi ABŞ-ın siyasi hökmranlığını artırmaqla yanaşı, onun bölgədə nüfuzunu da artırdı. ABŞ şirkətlərinin Latın Amerikasında fəaliyyəti iqtisadi əməkdaşlığa daha münbit şərait yaratdı. Bu şirkətlərin əksəriy-yəti ABŞ-da fəaliyyət göstərməyə çalışırdı. Qarşılıqlı əlaqələr Latın Amerikasnın kənd təsərrüfatına da əsaslı təsir göstərdi. Artıq iqtisadiyyatın bu sahəsində inkişaf özünü açıq şəkildə hiss etdirməyə başladı.*

**Açar sözlər**: Hərəkat, Müharibə, Yürüş, Dövlət, Xadim
**Ключевые слово:** Движение, Война, Марш, Государство, Фигура
**Key words:** Movement, War, March, State, Figure

Latın Amerikası ölkələri hələ XIX əsrin 20-ci illərində müstəqillik qazansa da, kapitalist təsərrüfatının inkişafında gecikdiklərinə görə qabaqcıl ölkələrin xammal əlavəsinə çevrildilər və əyalət kapitalizmi vəziyyətinə düşdülər. İkinci dünya müharibəsindən sonra Latın Amerikası dövlətləri güclü iqtisadi və siyasi vulkanlar zəncirinə çevrildi.Müharibə nəticəsində Latın Amerikası ölkələrində baş verən mühüm dəyişikliklərdən biri kapitalizm və milli sənayenin inkişafının sürətlənməsi idi.

Müharibədən sonra bu ölkələrdə demoqrafiq partlayış baş verdi. Müharibədən sonra urbanizasiya prosesi, yəni, əhalinin şəhərlərdə toplaşması gücləndi. Müharibə dövründə yığılmış qızıl-valyuta ehtiyatlarından istifadə iqtisadiyyatı dirçəltdi, sənayeni yeniləşdirdi, dünya ticarətində bu ölkələrin payını artırdı.İqtisadiyyatın modernləşməsi bazar iqtisadiyyatının inkişafına yeni təkan verdi. Xaricə kapital qoyuluşu artdı.

Latın Amerikası regionunun daha çox inkişaf etmiş ölkələri olan Uruqvay, Çili və Argentinada şəhər əhalisi üstünlük təşkil edirdi. Meksika və Braziliya sənayesinin inkişaf sürətinə görə fərqlənirdi. Sonralar bu ölkələrə Venesuela və Kolumbiya da qoşuldu. Peru, Ekvador, Boliviya, Mərkəzi Amerika və Karib hövzəsinin kiçik dövlətləri II qruppa aid edilir, onlarda emal sənayesi inkiaşf etmişdi.III qrup ölkələr sırasına daha çox geri qalan Haiti, Paraqvay və Karib hövzəsinin bəzi dövlətləri daxil idi ki,onlarda kənd təsərrüfatı üstünlük təşkil edirdi. Müharibə dövründə iqtisadiyyatın kənd təsərrüfatı bölməsində irəliləmə demək olar ki, yox idi. Kəndlilər torpaqsız idilər. Fermer təsərrüfatı yaradılmamışdı. Kəndlilər sahibkarlardan torpağı icarəyə götürməklə dolanırdılar.Müharibədən sonra latifundiyaların dağılması prosesi sürətləndi. Kəndlilərin ardıcıl və inadlı mübarizəsi region dövlətlərini aqrar islahatlar keçirməyə məcbur etdi.Bu islahatlar dərin olmasa da, hər halda latifundiyaları zəiflətdi.Demoqrafik partlayışlar, dünənki kəndlilərin şəhərlərə axışması da latifundiyaların dağılmasına güclü təsir göstərdi. Lakin, kənd təsərrüfatında nəzərə çarpan bir irəliləyiş olmadı.

XX yüillin 60-cı illərinin II yarısında ABŞ-ın Latın Amerikası regionuna açıq müdaxiləsinə əlverişli zəmin yarandı. Bu, onunla əlaqədar idi ki, artıq regiona hələ əvvəlki dövrlərdə ABŞ-ın iddiaları başlamış, bu iddialar ciddi nəticələrə yol açmışdır. Həmin

DOI:10.30546/gdu.2023.125-129

nəticələr ondan ibarət idi ki, ABŞ-ın ayrı-ayrı şirkətləri Latın Amerikası regionunda müəyyən fəaliyyət göstərir və bununla gələcək əməkdaşlığa faktiki şərait yaradırdı.

Göstərmək lazımdır ki, ABŞ-ın beynəlxalq müstəvidə həyata keçirdiyi tədbirlər Latın Amerikası regionuna müdaxiləni daha da asanlaşdırırdı. Belə ki, ABŞ özünün xammal mənbəyi kimi baxdığı Latın Amerikası ölkələrini müxtəlif yollarla istismar edərək onların inkişaf istiqamətlərini dəyişməyə çalışırdı.

1967-ci ilin yayında ABŞ-ın 100 şəhərində "irqi" müharibə oldu. 1968-ci ildə zənci hərəkatının görkəmli xadimlərindən olan Marten Lüfer Kinqin başçılığı altında Vaşinqtona yürüşə hazırlıq başlandı. Lakin, 1968-ci ilin aprelin 4-də Memfisdə onu öldürdülər. L. Consonun inzibati idarəsi nüfuzdan düşməmək üçün zəncilərin ağlarla hüquq bərabərliyini dövlət səviyyəsində təmin etməyə məcbur oldu.

60-cı illərdə ABŞ-da "yeni sol hərəkat" adlanan sosial etiraz hərəkatının yeni dolğası başlandı. Bu mübarizənin əsas istiqamətlərindən biri cəmiyyətin nöqsanlarına qarşı mübarizə aparan radikal gənclər hərəkatı idi. 60-cı illərdə ABŞ fəhlə hərəkatında isə böhran təmayülləri gücləndi. 1966-cı ildə qadınların milli təşkilatı yaradıldı.

60-cı illlərin əvvəllərində ölkədəki qadınların yalnız müəyyən qismi işləyirdi. 1924-cü ildə qəbul edilmiş mühacirat haqqında qanun 1965-ci ildə təxirə salınması ABŞ-a mühacir axınını genişləndirdi. Lindon Conson xarici siyasətdə sərt mövqe tutdu. Consonun hakimiyyəti illərində "Quruculuq", "Körpülər salma" doktrinası meydana çıxdı.

Bu məsələlər Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. 1945-2007-ci illər.B. 2011. kitabında geniş şəkildə öz əksini tapmışdır. Müəllif bu məsələlərə diqqət yetirərkən faktların ciddiliyinə xüsusi fikir vermiş və bununla problemi məntiqi baxımdan yüksək səviyyədə əsaslandırnışdır (3).

Bundan məqsəd ABŞ başda olmaqla qərb dövlətləri ilə bəzi sosialist ölkələri arasında hərtərəfli münasibətləri inkişaf etdirməklə bu ölkələrdə millətçilik əhval-ruhiyyəsinin artmasına, onların bir-birindən, xüsusilə, Sovet İttifaqından təcrid olunmasına nail olmaq idi.

Məhz, belə siyasət müxtəlif tədqiqatçıların marağına səbəb olmuş, bu istiqamətdə ciddi əsərlər yazılmış və nəşr edilmişdir. Həmin əsərlər sırasında Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.2005. kitabını xüsusi qeyd etmək olar (2).

Qeyd edilməlidir ki, kitab beynəlxalq münasibətlər sahəsində aparıcı ədəbiyyatlar sırasındadır. Belə ki, kitabda beynəlxalq münasibətlərin müxtəlif problem-ləri araşdırılmış və sanballı bi əsər hazırlanaraq elmi dövriyyəyə təqdim edilmiş-dir. Conson Latın Amerikasında "böyük dəyənək" siyasətinə qayıtdı. 1964-cü ilin əvvəllərində Panama ilə ABŞ arasında münaqişə yarandı, 1965-ci ilin aprelində Dominikan Respublikasına hərbi qüvvələr göndərildi. Yaxın Şərq münaqişəsində İsraili müdafiə etdi.

Tankin körfəzində Amerika gəmilərinə Vyetnam gəmilərinin guya hücumu haqqında bəhanədən istifadə edərək 1964-cü ilin aprelində Vyetnam səmasını bombalamağa başlamaq haqqında əmr verdi.

Əslində bundan məqsəd Sakit Okean və Uzaq Şərqdə ABŞ-ın mövqeyini daha da gücləndirmək idi.. Müharibə ölkə daxilində real əmək haqqının aşağı düşməsinə səbəb oldu. Ölkədə Vyetnamdakı müharibə əleyhinə hərəkat gücləndi (6,1).

1966-cı il iyulun 12-də Consonun "Asiya doktrinası" meydana gəldi (1,28). Bu, doktrinaya əsasən ABŞ Asiyada sülhsevərlik missiyasını öz üzərinə götürdü. Lindon Consonun daxili və xarici siyasəti onu nüfuzdan saldı.

Ümumiyyətlə, Braziliyanın iqlimi hər tərəfdə eyni olduğu zənn edilsə də, ölkədə müxtəlif iqlim fərqlilikləri görülür. Braziliyada görülən ən yüksək istilik şimal-şərq alçaq

DOI:10.30546/gdu.2023.125-129

bölgələrində qeyd edilmişdir. Şimalda Amazon Hövzəsində əldə edilən nəticələrə görə ilin çoxu nəmli və isti keçməkdədir.

Şimal-şərq sahilləri tropik nəmli bir iqlimə sahib olub, qışla birlikdə gələn yağışlı mövsüm (maydan oktyabra qədər) şimal sahillərinə soyuq hava gətirir. Şimal-şərqdəki nəmli bölgələrin iç seqmentləri səhradır. Braziliyanın şimal-şərqində Sertao deyilən davamlı quraq bölgələrdə kaktus və digər bitkilər olur.

Amazon bölgəsi xaric yaz mövsümü yağışlı mövsümdür. İlin geri qalan zamanında hava normal keçir. Ümumiyyətlə sahildən içəri getdikcə yağıntı artır. Ancaq, nəmli yağış gətirən sərt küləklər, iç qisimlərə getdikcə dağ maneələriylə qarşılaşır.

Bitkilər ümumiyyətlə iqlim və torpaq vəziyyətinə möhkəm bağlıdır. Braziliya bitkiləri üç qrupda araşdırılır. Meşələr: Az qala Braziliyanın yarısı meşələrlə örtülüdür. Meşələr dörd ana qrupda toplanır: Selva, mata, araucaris, caatinya. Amazon Hövzəsində iştirak edən ekvatorial dayaz yağmur meşələrindəki ağaclara "selva" deyilir.

Dünyanın ən böyük tropik yağışlı meşələridir. Əkinçilik terminləri arasında çox mənalı bir termin də Şərqi Braziliyanın tropik, yarpaqlarının yarısını tökən "mata" təbiridir. Bu meşələr Braziliyada yaxşı torpağın, humusun və geniş fermalara uyğun yerlərin bir simvoludur. Bu ağaclar kəsilərək əkinçilik üçün orqanik baxımdan zəngin torpaqlar əldə edilir.

Braziliyanın cənub yüksək dağlarındakı meşələrdə olan "araucaria" ağacı, Braziliyada inşaat taxta-şalbanı olaraq çox istifadə edilir. Xüsusilə, sürətlə inkişaf edən şəhərlərdə tökülən betonlara şəkil vermək üçün, quruluş vəsaiti olaraq istifadə edilməkdədir. Ancaq, çox istismar edildiyi üçün tükənmə təhlükəsilə qarşı-qarşıyadır. Caatinga deyilən meşə, ölkənin şimal-şərq bölgəsindədir. Burada Lokustlar və səhra/çöl bitkiləri olur.

Ümumiyyətlə otluqlar baxımından Braziliyanın mərkəz qisiminin böyük bir hissəsini örtür. Braziliyanın yeni paytaxtı Brasilia bu sovan bölgəsində qurulmuşdur. Şimali Amerikada kı çayırlar qədər bir münbit ərazi deyil.

Campos deyilən otlaqların başlıcaları Braziliyanın cənubunda və bəzi yaxşı sulanan mərkəz platolarda iştirak edir. Amazon bölgəsində də otlaq ərazilər tapılır. Braziliyada heyvanlar, balıqlar, quşlar və böcəklər istiqamətiylə çox fərqliliklər göstərir. Asiya, Afrika hətta Şimal Amerika ilə müqayisə edilsə Braziliyada bəzi böyük məməlilər yoxdur (5,1).

Şimaldakı meşələr heyvanlar baxımından, meymun və quşlar baxımından zəngindir. Balıq kimi bəzi heyvanlardan ticari olaraq istifadə edilir. Böcəklər əkinçilik üçün ciddi təhlükə ifadə etməkdədir. Ancaq, ilanlar nadir olaraq məskunlaşma yerlərində görünür. Bir çox vəhşi heyvanlar ovlanmaq səbəbilə nəsli kəsilmişdir.

Braziliya, ictimai ehtiyatı baxımından çox böyük fərqliliklər ifadə edir. Cənub seqmentləri, daha çox şəhərləşmiş, daha çox sənayeləşmiş, siyasi və ictimai ağırlığa malikdir. Şimal və şimal-şərq bölgələri isə, çöl bölgələr olub, daha çox aristokratlaşmıştır. Bu səbəbdən ötəri tarixçilər Braziliyadan bəhs edərkən, şimal və şimal-şərqdəki ənənəvi əkinçiliklə məşğul olan aristokrat siniflə, cənub bölgədəki sənayeləşmiş demokrat ictimai sinifi bir-birindən ayırırlar.

Braziliyada əhali artımı çox yüksəkdir. İyirminci əsrin sonlarında dünyanın ən sıx ölkələrindən biri olacağı təxmin edilir. Ancaq, fərqli irqlər arasında evlənmələr səbəbiylə metis xalq artmaqdadır. Braziliyaya xaricdən gələnlər olduqca çoxdur. Ailədə ata hakimdir.

Ancaq, son zamanlarda bu hakimiyyət zəifləmişdir. Braziliyalılar yaz və havanın normal olduğu qış günlərində küçəyə tökülürlər. Evlərini açıq, ancaq, kölgəli yerlərə inşa edirlər. Musiqi və samba xalqın çox çox rəğbət etdiyi oyunlardır. İdmanın hər növü inkişaf edir. Xüsusilə, futbolda dünyada söz sahibidir. Əhalinin bir qismi sahildəki məskunlaşma

DOI:10.30546/gdu.2023.125-129

mərkəzlərində toplanmışdır. Ən əhəmiyyətliləri Sao Paulo ölkənin köhnə paytaxtıdır. Yeni qurulan paytaxt Brasilia, Salvodor, Parto Alegre digər əhəmiyyətli şəhərlərdəndir.

Braziliya iqtisadiyyatı İkinci dünya müharibəsindən sonra qısa bir durğunluq göstərməsinə baxmayaraq, sonradan böyük bir inkişaf göstərmişdir. Ancaq, inflyasiya faizi baxımından dünyada ən irəli ölkələr arasında olub, minli rəqəmlərə çatmışdır. Braziliya, sənayesinin inkişafına baxmayaraq, ümumiyyətlə, əkinçilik ölkəsidir. Ərazinin yarıdan çoxu qida məhsulları olmasına baxmayaraq, yenə də qida ehtiyacının bir qisimini xaricdən idxal etməkdədir.

Braziliya dünyanın ən böyük qəhvə istehsalçısı və ixracatçısıdır. Ancaq, bu qəhvə Amerika qitəsindəki ölkələrin ehtiyacını ancaq, qarşılayır. Pambıq istehsalı da inkişaf etmişdir, qəhvə ilə birlikdə kurs qaynağını təşkil etməkdədir. Şəkərqamışı və kakaonun da az bir qisimini ixrac etməsinə baxmayaraq, böyük bir qisimini daxili istehlak üçün istifadə edir.

Qiymətli taxta-şalbanlıq ağaclar, düyü, təzə paxla, pambıq, qəhvə, şəkərqamışı, kakao və qarğıdalı başlıca məhsullarıdır. Ölkənin bəzi yerlərində az miqdarda portağal, banan, yerfıstığı, tütün, lif və bəzi tərəvəzlər yetişdirilir. Braziliya maldarlıqda dünyanın qabaqda gələn ölkələrindəndir. Fermalarda bol miqdarda ət üçün mal yetişdirilir.

Braziliyada əkinçilik iki qrupa ayrılır:

1. Rio da Janerionun şimal qisimlərində ibtidai üsullarla edilən əkinçilik.
2. Ölkənin cənubunda daha çox müasir alətlərlə edilən əkinçilik (4,1).

Braziliyada meşələrdəki araucaria ağacları taxta-şalbançılıqda geniş şəkildə istifadə edilir. Amazon meşələrindəki meşələr, yeni yeni istehsala girir. Bal mumu, qabıqlı bitkilər, zamk ağacı, satışa çıxarıla bilər meşə məhsullarıdır. Ancaq, bu bitkilərin heç biri hələ satışa çıxarma mühitinə girməmişdir. Meşə məhsulları eyni zamanda tibb sahəsində də istifadə edilir. İpəyə siropu, kokain, tiryək vs. Narkotiklər bu tip meşə məhsullarından əldə edilir. Balıqçılıq gün keçdikcə artır və ölkə iqtisadiyyatına böyük rol oynayır.

Son illərdə Braziliya məmul sənaye məhsulları ixracatı, əkinçilik məhsullarından daha çox olmuşdur. Sənayedə elektrik və enerji ehtiyacını önləmək üçün dünyanın ən böyük hidroelektrik stansiyasını qurmuşdur. 1977-ci ildə almanlarla texniki əməkdaşlıq edilərək nüvə stansiyalar işlədilməyə başlanmışdır. Dəmir-polad, toxuma, kağız, şüşə, təkər, plastik və s. emalında fabriklər qurularaq, öz-özünə çatacaq hala gətirilmişdir.

Braziliya zəngin mədən yataqlarına malikdir. On səkkizinci əsrdən etibarən zəngin qızıl, almaz mədənləri tapılmışdır. Braziliya eyni zamanda dünyanın ən bol dəmir ehtiyatlarına malikdir. Amapo bölgəsində bol miqdarda manqan çıxarılır. Salvador yaxınlarında neft tapılmışdır. Braziliyada çox az kömür yataqları var. Xaricdən idxal yolu ilə ehtiyacını ödəyir. Braziliyanın nəqliyyat çətinliyi əhəmiyyətli məsələlərdəndir. Coğrafi quruluşundan ötrü müasir quru yollarının qurulması gecikmişdir. Yeni yeni nəqliyyat inkişaf edir və müasir hava limanları qurulur. Amazon çayı və qolları üzərində gəmiçilik və nəqliyyat yüksək səviyyədədir.

Beləliklə, ABŞ-ın Latın Amerikasında hökmranlığının güclənməsi probleminə dair aşağıdakı elmi nəticələri çıxarmaq olar: 1. Lindon Consonun hakimiyyəti gücləndikcə Latın Amerikasına müdaxilə daha da ciddi xarakter almağa başladı. Latın Amerikasının aparıcı ölkələri olan Braziliya daha çox fərqli inkişaf yolu ilə getməyə başladı. Bunun başlıca səbəbi ondan ibarət idi ki, ABŞ-ın hakim dairələri bu ölkəyə xüsusi maraq göstərir, onun iqtisadiyyatının aparıcı sahəsi olan qəhvə istehsalını nəzarət altında saxlamağa çalışırdı. 2. ABŞ-ın yüksək dairələri belə hesab edirdilər ki, Latın Amerikasının iqtisadiyyatına və siyasi həyatına nüfuz etməklə, regionun inkişafına nail olmaq mümkündür.

DOI:10.30546/gdu.2023.125-129

***Ədəbiyyat***

1.Fətəliyev M; Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 1945-2003. B.2008.
2.Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.2005.
3.Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi.II hissə. 1945-2007-ci illər.B. 2011.
4. www.google. az. Braziliya.
5. www.google. az.Campos.

## УКРЕПЛЕНИЕ ДОМИНИРОВАНИЯ США В ЛАТИНОАМЕРИКАНСКОМ РЕГИОНЕ

***Бахтиярлы Гусейн***

***Резюме***

В статье рассматривается сущность доминирования США в латиноамериканском регионе в период правления президента Линдона Джонсона. Отмечается, что США на протяжении многих лет обеспечивали политическое и экономическое господство во всей Латинской Америке. Правящие круги стран региона попытались использовать интервенцию США. Это правда, что массы протестовали. Однако правящие круги этого не учли.

## STRENGTHENING US DOMINANCE IN THE LATIN AMERICAN REGION

***Bakhtiyarlı Huseyn***

***Summary***

The article examines the essence of US domination in the Latin American region during the rule of President Lyndon Johnson. It is noted that the United States has ensured political and economic dominance in all of Latin America over the years. The ruling circles of the countries of the region tried to use the US intervention. It is true that the masses protested. However, the ruling circles did not take this into account.

***Rəyçi:dosent Veysəlova Vüsalə***
***Ümumi tarix kafedrasının 24 may 2023-cü il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olma tarixi 26 may 2023***